*M.BAYRAMLI*



# Bakını vəsf edən bəstəkarsız 22 il

## Tofiq Quliyevin anım günüdür

Bu gün görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin anım günüdür. Böyük sənətkarın vəfatından 22 il ötür. Azərbaycan bəstəkarlıq məktəbinin ən parlaq simalarından olan Tofiq Quliyev 1917-ci il noyabrın 7-də Bakı şəhərində anadan olub, erkən yaşlarından musiqiyə maraq göstərib. Ötən əsrin 30-cu illərində T.Quliyev Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki məktəbin fortepiano sinfinə daxil olub. Deyilənə görə, Asəf Zeynallı onun inkişafına böyük təsir göstərib. Məhz sevimli müəlliminin məsləhəti ilə 14 yaşlı Tofiq Quliyev M.Ə.Sabirin sözlərinə “Məktəbli” mahnısını yazıb və bu zamandan etibarən dostu, görkəmli sənətkar Qara Qarayev ona “Sən bizim bəstəkarımızsan” deyib. 1934-cü ildə musiqiyə olan məhəbbəti T.Quliyevi Azərbaycan Dövlət Konservatoriyasına gətirib çıxarır.



O dövrdə gənclərin musiqiyə gəlişi və ilk uğurlu addımları dahi Üzeyir Hacıbəyovun adı ilə bağlıdır. “Mənəvi ata” saydığı Üzeyir bəyin və böyük sənətkar Bülbülün rəhbərliyi ilə gənc musiqiçinin fəaliyyət sahəsi şaxələnir. 1936-cı ildə T.Quliyev tarzən Mansur Mansurovun ifasında “Rast” və “Segah-Zabul” muğam dəsgahlarını nota köçürüb və onlar milli musiqi tarixində ilk dəfə olaraq nəşr edilib. Bu nəcib təşəbbüsə Üzeyir Hacıbəyov o vaxt belə qiymət verib: “Muğamların nota yazılması Azərbaycan musiqi həyatında böyük çevriliş yaratmaqla incəsənətimizə böyük xidmətdir”.

Sonralar da musiqi folklorunun toplanılması sahəsində mühüm işlər görmüş bəstəkar 1955-ci ildə “Azərbaycan xalq rəqsləri”ni fortepiano üçün işləmiş, “Azərbaycan xalq mahnıları” topluları üçün çoxsaylı mahnıları nota da köçürüb.

Həmin il Üzeyir bəyin şəxsi təşəbbüsü və təklifi ilə Tofiq Quliyev P.İ.Çaykovski adına Moskva Konservatoriyasının dirijorluq fakültəsində təhsilini davam etdirib. Moskvada oxuduğu illərdə dirijor-bəstəkar T.Quliyevin adına bu şəhərin konsert afişalarında tez-tez rast gəlinirdi. O, Dük Ellinqtonun məşhur “Karvan” pyesini “Çahargah” məqamında işləməklə milli musiqi tarixində ilk dəfə olaraq muğam və caz musiqisinin sintezini yaradır.

Doğma yurduna qayıdan Tofiq Quliyev yaradıcılığının ilk mərhələsində yazdığı “Bakı haqqında mahnı”, “Züleyxa”, “Neftçilər mahnısı”, “Süfrə mahnısı” kimi geniş yayılmış vokal incilər dinləyicilərin hafizəsinə həmişəlik həkk olunur.

Bəstəkar Azərbaycan musiqisində lirik mahnıların klassik nümunələrini yaradır. Sənətkarın “Sənə də qalmaz”, “Qəmgin mahnı”, “İlk bahar”, “Neylim”, “Axşam mahnısı”, “Bakı gecələri” kimi mahnıları insanın daxili aləmini, həyəcanını, məhəbbətini romantik bir dillə əks etdirir.

Sənətkarın yaradıcılığında mahnı janrı aparıcı olsa da, bədii istedadı bununla məhdudlaşmır. O, həmişə böyük həvəslə kino sənəti üçün çalışır, yetmişdən çox filmə musiqi bəstələyir. “Səbuhi”, “Ögey ana”, “Görüş”, “Bəxtiyar”, “Onu bağışlamaq olarmı”, “Telefonçu qız”, “Nəsimi” və s. filmlərə yazdığı musiqi özünün melodikliyi, təbiiliyi ilə seçilir, mahnıları isə coşqun ilhamla oxunur.

Bakını vəsf edən bəstəkarların ön cərgəsində Tofiq Quliyevin də adı çəkilir. Görkəmli bəstəkarın şah əsəri bu gün də dillər əzbəridir. Sərhədləri aşan əsər hər zaman iftixar və qürur hissi ilə oxunulur və oxunulacaq:

*Ürəyim səninlə edir iftixar,*
*Xəzərin qoynunda saldın buruqlar.*
*Qəlbimdə qəlbinin hərarəti var.*
*Sən şəhərlər gözəlisən, Bakı*

Milli musiqi xəzinəmizə töhfələr verən paytaxtımızın şəninə yazdığı “Bakı haqqında mahnı” dinləyənləri ovsunlayır. Eləcə də “Telefonçu qız” kinofilmində səslənən melodiya bəstəkarlıq sənətində silinməz izlər qoyur:

*Sən ana Xəzərimin sahilində,*
*Şan Bakı, şöhrətin var el dilində.*
*Səhərlərin aydın, təmiz,*
*Bir döyünür ürəyimiz.*
*Sən şəhərlər gözəlisən, Bakı.*
*Ey cavan, Bakı, Mehriban, Bakı!*

Musiqini dinlədikcə sanki Xəzərin coşqun dalğaları kimi şahə qalxırsan. Doğma Bakıya, dalğalı Xəzərə mənəvi tellərlə son dərəcə bağlı olan unudulmaz sənətkar Tofiq Quliyevin xatirələrindən...”Məni oxudan da, böyüdən də, insan edən də Bakı şəhəri olub. Ona görə də mən nə mahnı yazsam, orada hökmən Bakının adı çəkilir”.

*Bax, necə göy Xəzərim ləpələnir.*
*Hər səhər sularına nur çilənir.*
*Böyük, əzəmətli şəhər,*
*Günəşli, qüdrətli şəhər.*

Böyük bəstəkarın sənətinə dövlət tərəfindən göstərilən diqqət və qayğı da bir növ onun xatirəsinə olan ehtiramın bariz nümunəsidir. Sənətkarın şərəfli əməyi ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. 1997-ci ildə o, “İstiqlal ordeni” ilə təltif edilib. 2000-ci ildə dünyasını dəyişən Tofiq Quliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən sənətkarın yaşadığı binaya xatirə lövhəsi vurulub, Bakının küçələrindən birinə və 12 nömrəli musiqi məktəbinə bəstəkarın adı verilib. Prezident İlham Əliyevin Tofiq Quliyevin 100 illik yubileyinin keçirilməsi haqqında müvafiq Sərəncamı görkəmli sənətkarın xatirəsinə dərin hörmət və ehtiramın təcəssümü kimi qiymətləndirilib, ictimaiyyətimiz tərəfindən rəğbətlə qarşılanıb.

Adı musiqi tariximizə böyük hərflərlə həkk olunmuş müdrik sənətkarın bənzərsiz yaradıcılığı xalqımız tərəfindən həmişə yüksək tutulacaq.